UDC 016.12 (479.24) https://doi.org/10.59849/0002-3078.2025.1-2.3

# DÜNYADA ELMLƏR AKADEMİYALARI VƏ AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli**

**Akademiya sözü geniş anlayış olub, yunan dilində elm, ali təhsil və incəsənət sahələrini əhatə edən elmi mərkəzlər mənasını bildirir.[1] Akademiya termini qədim Yunanıstanda bizim eradan əvvəl 387-ci ildə Afinada təsis edilmiş dünyanın ilk akademiyası hesab edilən Platon Akademiyasının adı ilə elmi dövriyyəyə daxil olmuşdur. Belə ki, bizim eradan əvvəl IV əsrdə fəaliyyət göstərmiş məşhur Platon Akademiyasında antik yunan filosofları Platon və Aristotelin söhbətlərinin keçirildiyi məkan qədim yunan mifologiyasında yarım allahlardan biri kimi haqqında söz açılan Hekademin adı ilə bağlı olmuşdur.[2] Platon özünün məşhur təhsil müəssisəsini yaradarkən həmin Hakadema meşəliyi adlanan[3] müqəddəs məkanı seçməklə həm də elm və təhsilə dair ideallarının ilahi dərəcədə müqəddəs olduğunu nəzərə çatdırmış və bu ideala axıradək məsuliyyətlə xidmət etmişdir. Həmin yer qədim dövrün təhsilli adamlarının nəzərlərində müqəddəs hesab olunmuşdur.[4]**

Platon Akademiyası antik dövrün qədim yunan filosofu Platonun (428-347) rəhbərliyi ilə fəaliyyət göstərmiş ali təhsil müəssisəsi kimi dünyada böyük şöhrət qazanmışdır. Antik dövrün və bəşəriyyətin keçdiyi bütün inkişaf dövrlərinin ən böyük mütəfəkkiri olan Aristotelin (384-322) bu Akademiyada təhsil alması Platon Akademiyasının dünya şöhrəti qazanmasında mühüm rol oynamışdır. Ailə həyatı qurmayan Platon üçün Akademiya təkcə onun özünün yox, bütövlükdə Yunanıstan cəmiyyəti ailəsinin taleyinin əsas hərəkətverici qüvvəsi kimi uca tutulmuşdur.

Sonralar dünyada Akademiyalar daha çox elm adamlarının fəaliyyət göstərdiyi, elmi araşdırmaların və müzakirələrin aparıldığı elmi-tədqiqat müəssisəsi statusu qazanmışdır. Hələ orta əsrlərdən başlayaraq ayrı-ayrı ölkələr özləri Akademiyasını yaratmışlar.

Funksiyalarına görə Elmlər Akademiyaları aşağıdakı kimi bir neçə qrupa ayrılır:

1. Milli Elmlər Akademiyaları (Elmlər Akademiyaları da bu qrupa aiddir)
2. Beynəlxalq Akademik qurumlar (Beynəlxalq Elmi Şura; Akademiyalararası Beynəlxalq Tərəfdaşlıq Akademiyası, Elmlər Akademiyalarının Beynəlxalq Assosiasiyası və s.)
3. Elmlər Akademiyaları Assosiasiyaları (Məsələn, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyası)
4. Sahə üzrə Elmlər Akademiyaları (Tibb Akademiyası, Mühəndislik Akademiyası, Pedaqoji Elmlər Akademiyası və s.)
5. Elm və Təhsil sahələrini birgə əhatə edən Akademiyalar (Amerika İncəsənət və Elmlər Akademiyası, Rusiya İncəsənət Akademiyası və s.)
6. Elm və İncəsənət Akademiyaları (hazırda Avropa ölkələrinin əksəriyyətinin Elmlər Akademiyaları belə adlanır)

---

[1] Словарь иностранных слов. М.: Русский язык, 1986, с.19-20
[2] Юрий Борев. Энциклопедия эстетики. Москва, «Фонд Исмаила Ахметова», 2015, s.20
[3] Pol Stpetern. Platonla 90 dəqiqə. Bakı: Qanun, 2022, s.29
[4] Сократ-Платон-Аристотель. Дэвид Юм – Шопенгауэр (составитель Н.Ф.Волдырева). М.: Молодая гвардия, 2020, с.92

7. Elm və Texnologiya Akademiyaları (Asiya ölkələrində Akademiyalar üçün bu format qəbul edilmişdir).

8. İnstitut adlandırılan elmi-tədqiqat xarakterli Akademik qurumlar (Amerika Standartlar və Texnologiyalar İnstitutu).

9. Universitetlərin tərkibində fəaliyyət göstərən Akademiya tipli elmi qurumlar.

10. Kral Akademiyaları (Britaniya)

11. Papa Akademiyası (Roma)

12. Akademiya tipli elmi cəmiyyətlər

13. Akademiya statusuna malik olan Elmi-Tədqiqat Laboratoriyaları (Məsələn: ABŞ Hərbi Dəniz Elmi-Tədqiqat Laboratoriyası)

13. Gənc Alim və Mütəxəssislərin Akademik təşkilatları (Gənc Alimlərin Beynəlxalq Akademiyası, Almaniya Gənclər Akademiyası və s.)

Keçmiş Sovetlər ittifaqında SSRİ miqyasında və müttəfiq respublikalar üçün bütün elm sahələrini özündə birləşdirən Elmlər Akademiyası formatı qəbul olunmuşdu. Sovet hakimiyyəti illərində Azərbaycan SSR Elmlər Akademiyası kimi fəaliyyətini davam etdirmiş ölkəmizin ali dövlət elmi təşkilatı xalqımızın Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyası statusu qazanmışdır.

Dünyada Akademiyalar müxtəlif adlar ilə fəaliyyət göstərirlər. Amerika Birləşmiş Ştatlarında əsas akademik qurum Milli Elmlər Akademiyası adı ilə fəaliyyətini davam etdirməkdədir. ABŞ Milli Elmlər Akademiyası prezidentinin rəhbərlik etdiyi Elmlər Akademiyasında vitse-prezident vəzifələrini Amerikanın Tibb və Mühəndislik Akademiyalarının prezidentləri yerinə yetirirlər.

Çin Xalq Respublikasında 1949-cu ildə təsis edilmiş Elmlər Akademiyası Milli Elmlər Akademiyası statusunda fəaliyyət göstərir.

Rusiyada Elmlər Akademiyası I Pyotrun 8 fevral 1724-cü il tarixli fərmanı ilə Sankt-Peterburq Elmlər Akademiyası kimi yaradılmışdır. Sonralar Rusiya İmperator Akademiyası, sovet hakimiyyəti illərində isə SSRİ Elmlər Akademiyası adlandırılmışdır. Hazırda bu elmi təşkilat Rusiya Elmlər Akademiyası kimi fəaliyyətini davam etdirir.

İngiltərədə Elmlər Akademiyası Kral Cəmiyyəti adı ilə tanınır. Britaniya Kral Akademiyası da adlandırılan bu akademik elmi təşkilat 1860-cı ildə təsis edilmişdir.

Almaniyada bir neçə Akademik elmi-təşkilati qurum olsa da, Elmlər Akademiyası funksiyasını Alman Elmi-Tədqiqat Fondu həyata keçirir. Ölkədəki əsas elmi-tədqiqat institutları və universitetlər Alman Elmi-Tədqiqat Fondunun üzvləri statusunda fəaliyyət göstərirlər.

Fransada müxtəlif dövrlərdə ayrı-ayrı adlarla yaradılmış Elmlər Akademiyaları hazırda da fərqli adlarla fəaliyyətlərini davam etdirirlər. Lakin Fransada 1795-ci ildə elmi tədqiqat müəssisəsi kimi yaradılmış Fransa İnstitutu əsas elmi təşkilat statusu daşıyır. Fransa İnstitutu ölkədə təsis edilmiş bir neçə akademik qurumları özündə birləşdirir. Belə ki, ondan əvvəl 1635-ci ildə təsis edilmiş Fransa Akademiyası, 1663-cü ildən fəaliyyətə başlamış Fransa Əlyazmaları Akademiyası, 1866-cı ildən fəaliyyət göstərən Fransa Elmlər Akademiyası, 1795-ci ildə yaradılmış Fransa İncəsənət Akademiyası, 1832-ci ildən fəaliyyətini davam etdirən Fransa Siyasi Elmlər və Mənəviyyat Elmləri Akademiyası Fransa İnstitutunun tərkibinə daxildir.

Avropa qitəsindəki əksər dövlətlərin Elmlər Akademiyaları vardır. Şərqi Avropa ölkələrində ən qədim Akademiya 1724-cü ildə təsis edilmiş Rusiya Elmlər Akademiyasıdır. Macarıstan Elmlər Akademiyası 1825-ci ildən, Rumıniya Akademiyası və Xorvatiya Elmlər Akademiyası 1866-cı ildən, Bolqarıstan Elmlər Akademiyası 1869-cu ildən, Serbiya Elmlər Akademiyası 1882-ci ildən fəaliyyət göstərir. Şərqi Avropadakı digər ölkələrin Elmlər Akademiyaları XX əsr ərzində formalaş-

dırılmışdır. Belə ki, Sloveniyada (1938), Polşada, Slovakiyada, Çexiyada (1952), Bosniya və Hersoqovinada (1966), Şimali Makedoniyada (1967), Albaniyada (1972), Çernoqoriyada (1976), Rostovda (1978) fəaliyyət göstərən əksər Akademiyalar Elm və İncəsənət Akademiyaları adlanır.

Qərbi Avropa ölkələrində Elmlər Akademiyalarının yaranma tarixi Şərqi Avropa ilə müqayisədə daha qədimdir. Belə ki, İtaliya Lincei Elmlər Akademiyası 1603-cü ildə, Almaniya Elmlər Akademiyası 1652-ci ildə, Britaniya Kral Elmi Cəmiyyəti 1660-cı ildə, Fransa Elmlər Akademiyası 1866-cı ildə təsis edilmişdir. XVIII əsrdə də Qərbi Avropa ölkələrində Elmlər Akademiyalarının yaradılması prosesi davam etdirilmişdir. Danimarka (1742), İsveç (1739), Portuqaliya (1779), İrlandiya (1785) Elmlər Akademiyaları üç yüz ildən artıq bir dövrdə öz ölkələrinin elmi-texniki və mədəni inkişafına mühüm töhfələr verməkdə davam edirlər.

İsveç Kral Akademiyası bir əsrdən çoxdur ki, dünyanın ən nüfuzlu mükafatı olan Nobel mükafatlarının müəyyən edilməsi missiyasını məsuliyyətlə həyata keçirir.

XIX-XX əsrlərdə Qərbi Avropada Akademiya quruculuğu başa çatdırılmışdır. Niderland Kral Akademiyası 1808-ci ildən, Avstriya Akademiyası 1847-ci ildən, İspaniya Dəqiq və Təbiət Kral Akademiyası, Norveç Elmlər və Ədəbiyyat Akademiyası 1857-ci ildən fəaliyyətlərini davam etdirməkdədir. Avropanın bu hissəsində XX əsrdə İslandiya Elmi Cəmiyyəti (1918), Finlandiya Elmlər və Ədəbiyyat Akademiyası (1908), Afina (Yunanıstan) Akademiyası (1926), Vatikan Papa Akademiyası 1936-cı ildən fəaliyyət göstərməkdədir. Sonrakı dövrlərdə Türkiyə Elmlər Akademiyası (1993), Belçika Kral Elmlər və İncəsənət Akademiyası (2001) və nəhayət, İsveçrə Elmlər və İncəsənət Akademiyası (2006) təsis edilməklə nəinki Avropada, dünyada Akademiya quruculuğu yekunlaşmışdır.

Keçmiş SSRİ-yə daxil olmuş ölkələrdən Rusiya Elmlər Akademiyası (1724), Ukrayna Milli Elmlər Akademiyası (1918), Belarusiya Elmlər Akademiyası (1928), Estoniya Elmlər Akademiyası (1938), Litva Elmlər Akademiyası (1941), Ermənistan, Özbəkistan (1943), Azərbaycan (1945), Gürcüstan, Qazaxıstan, Moldova (1946), Türkmənistan, Tacikistan (1951), Qırğızıstan (1954) Elmlər Akademiyalarında fundamental tədqiqatlar və tətbiqi araşdırmalar uğurla davam etdirilir.

Ümumiyyətlə, Asiya qitəsindəki 49 ölkədən iyirmi dördündə Elmlər Akademiyaları vardır. Asiyada ən qədim Elmlər Akademiyası 1867-ci ildə yaradılmış Yeni Zelandiya Kral Elmi Cəmiyyətidir. Monqolustan Elmlər Akademiyası 1921-ci ildə, Hindistan Milli Elmlər Akademiyası 1935-ci ildə, Yaponiyada Elmlər Akademiyası funksiyasını yerinə yetirən Yaponiya Elmi Şurası və Çin Xalq Respublikasının Elmlər Akademiyası 1949-cu ildə, Koreya XDR Elmlər Akademiyası 1952-ci ildə, Pakistan Elmlər Akademiyası 1953-cü ildə, Avstraliya Elmlər Akademiyası və Cənubi Koreya Elmlər Akademiyası 1954-cü ildə yaradılmışdır. Hazırda Asiya qitəsində İsrail İctimai və Humanitar Elmlər Akademiyası (1961), İordaniya Kral Elmi Cəmiyyəti (1970), Banqladeş Elmlər Akademiyası (1973), Vyetnam Elm və Texnologiya Akademiyası və Vyetnam Sosial Elmlər Akademiyası (1975), Filippin Elm və Texnologiya Akademiyası, Şri Lanka Milli Elmlər Akademiyası (1976), Sinqapur Elmlər Akademiyası (1977), Əfqanıstan Elmlər Akademiyası (1978), Nepal Elmlər Akademiyası (1982), İndoneziya Elmlər Akademiyası (1990), Malaziya Elmlər Akademiyası (1995), Fələstin Elmlər Akademiyası, Tayvan Elmlər Akademiyası (1997), İran İslam Respublikası Elmlər Akademiyası (1998), Kamboca Kral Akademiyası (1999), Livan Elmlər Akademiyası (2007) kimi akademik qurumlar fəaliyyət göstərməkdədir. Asiyada ən böyük Elmlər Akademiyası olan Çin Xalq Respublikasının Elmlər Akademiyasında 64 min əməkdaş çalışır. Şimali Koreya Xalq Demokratik Respublikası Dövlət Elmlər Akademiyasında 50 min, Vyetnam Elmlər Akademiyasında 1800 əməkdaş fəaliyyət göstərir. Elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmayıb, akademik klub funksiyalarını icra edən Nepal Akademiyasının 40, Fillipin Akademiyasının 36, Əfqanıstanın 35 nəfər inzibati vəzifələri yerinə yetirən əməkdaşı vardır.

Afrika qitəsində 24 ölkənin Elmlər Akademiyası mövcuddur. Dünyanın ən qədim Akademiyası hesab edilən Efiopiya Akademiyası 1137-ci ildə yaradılmışdır. Misir Elmlər Akademiyası 1922-ci ildən fəaliyyət göstərir. Qara qitədə Mərakeş (1952), Sudan (1956), Qana (1959), Madaqaskar, Kamerun, Burkino-Faso, Konqo, Nigeriya, Seneqal, Toqo, Kot-d`ivuar (1960), Cənubi Afrika Respublikası (1961), Uqanda, Əlcəzair (1962), Kenya (1963), Zambiya (1964), Zimbabve (1964), Mavriki (1968), Benin, Mozambik (1975) Elmlər Akademiyaları fəaliyyət göstərməkdədir.

Bundan başqa, Afrika Elmlər Akademiyalarını və elmi qurumlarını koordinasiya edən və istiqamətləndirən Afrika Elmlər Akademiyaları Assosiasiyası da vardır.

Dünyada çoxsaylı Akademiyaları özündə birləşdirən əsas beynəlxalq elmi təşkilatlar aşağıdakılardır:

1. Beynəlxalq Akademiyalar Birliyi - İUA (Paris - 1920).

63 Elmlər Akademiyasını əhatə edir.[1]

2. Beynəlxalq Elmi Şura - İCSU (Paris - 1931).

145 ölkə üzrə 201 Elmlər Akademiyasını və elmi cəmiyyəti özündə birləşdirir.

3. Beynəlxalq Elmlər Akademiyaları Birliyi - İAR (İtaliya, Triyest - 1993). 119 Elmlər Akademiyası və elmi təşkilatdan ibarətdir.

4. Akademiyalararası Beynəlxalq Tərəfdaşlıq - İAP (İtaliya, Triyest - 2016). 140 Elmlər Akademiyası və elmi qurum ABT təşkilatının üzvüdür.

5. Beynəlxalq Elmlər Akademiyası Assosiasiyası - İAAS - MAAN (Kiyev - 1993). MDB Elmlər Akademiyaları və digər akademik qurumlardan təşkil olunmuşdur.

6. Təbiət və Humanitar Akademiyalarının Avropa Federasiyası - ALLEA (Almaniya, Berlin - 1994).

59 Akademiyanı və elmi təşkilatı özündə birləşdirir.

7. Avropa Elmlər Akademiyası - EASAS (Almaniya,Yagerberq - 2001). Avropa Elmlər Akademiyalarının Məsləhət Şurası da adlanır.

1919-cu ildə 25 ölkənin EA-nı əhatə etmişdir.

8. Afrika Elmlər Akademiyaları Şəbəkəsi - MASAS (Keniya, Nayrobi - 2001).

9. İslam Ölkələrinin Elmlər Akademiyaları Şəbəkəsi - NASİC (Pakistan, İslamabad - 2004).

57 ölkənin EA-nı və elmi təşkilatlarını birləşdirir.

10. Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyası - AASSA (Cənubi Koreya, Seul - 2012).

34 ölkənin Elmlər Akademiyalarından təşkilatlanıb.

11. Ümumdünya Elmlər və İncəsənət Akademiyası - VAAS (ABŞ, Napa - 1960).

78 ölkədən 730 nəfər üzvü vardır.

12. Dünya Elmlər Akademiyası - TVAS (İtaliya, Triyest - 1983). Nobel mükafatı laureatı Abdas Salamın iştirakı ilə təsis edilmişdir. 2019-cu ildə 90 ölkədən 1200 nəfər üzvü olmuşdur.

13. Ümumdünya Gənclər Akademiyası - GYA (Almaniya, Qallena - 2010)

14. Latın Amerikası Elmlər Akademiyası (ABŞ, San-Fransisko - 1982).

15. İslam Ölkələri Elmlər Akademiyaları - İAS (Omman, İordaniya - 1986).

57 ölkənin elmi təşkilatlarından ibarətdir.

16. Avropa Akademiyaları (London - 1988).

17. Avropa Elmlər və İncəsənət Akademiyası (Avstriya, Zalsburq - 1990).

[1] Beynəlxalq Akademiyaların tərkibinə daxil olan elmi təşkilatların sayı 2019-cu ilin məlumatları əsasında müəyyən edilmişdir.

1700 nəfər üzvü vardır.

18. Avropa Elmlər Akademiyası (Belçika - 2003).

570 nəfər üzvü vardır. 15 nəfəri Nobel mükafatçısıdır.

19. Ərəb Elmlər Akademiyası (Livan, Beyrut - 2002).

20. Almaniya Gənclər Akademiyaları - YAR (2012).

Azərbaycanda akademiya tipli ilk elmi qurum XIII əsrdə, 1259-cu ildə görkəmli elm xadimi Nəsirəddin Tusi tərəfindən yaradılmış Marağa Rəsədxanasıdır. Marağa Rəsədxanası universal akademik qurum olub, astronomiya ilə yanaşı, riyaziyyat, tibb, metafizika, fəlsəfə, xəttatlıq və sair kimi elm sahələrinə dair də tədqiqatlar aparılmışdır. XIV əsrdə təsis edilmiş, Rəşidəddinin rəhbərlik etdiyi Təbriz Daruş-Səfa Akademiya şəhərciyi də universal fəaliyyət sahəsinə malik olub, bir çox elmləri və təhsil sahəsini də əhatə etmişdir.

Bundan başqa, ölkəmizdə elmin təşkilatlanması işinə yenidən XX əsrdə başlanılmışdır. Belə ki, 1923-cü ildə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının sələfidir. Daha sonra 1929-1932-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Elmi Tədqiqat İnstitutu kiçik akademik qurum modelində tədqiqatlar aparmış, aspirantura vasitəsilə yeni elmi nəslin hazırlanması işinə başlamışdır. SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi və SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı artıq təşkilatlanmış elmi qurumlar idi.

Nəhayət, 27 mart 1945-ci ildə müstəqil elmi təşkilat kimi Azərbaycan Milli Elmlər Akademiyası yaradılmışdır. Akademik Mirəsədulla Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti, Şamil Əzizbəyov və Heydər Hüseynov vitse-prezidentlər, Mirəli Qaşqay akademik-katib seçilmişlər.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər Elmlər Akademiyasının intibah dövrü hesab olunur. Bu illərdə Elmlər Akademiyasında mükəmməl elmi məktəblər yaranmış, elmimiz Sovetlər İttifaqının hüdudlarını aşaraq dünyada tanınmış və yeni elmi nəsil yetişib formalaşmışdır. Təəssüf ki, Ulu öndər SSRİ-nin rəhbərliyinə getdikdən sonra bu inkişaf tempi qorunub saxlanılmamışdır. Hətta müstəqilliyin başlanğıc illərində Akademiyanı ləğv etmək  haqqında bəyanatlar səsləndirilmişdir. Ona görə də 1983-1993-cü illər Elmlər Akademiyasının tənəzzül və böhran dövrü hesab olunur. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətində yenidən siyasi hakimiyyətə qayıdışı ilə respublikanın digər sahələrində olduğu kimi, böyük dirçəliş prosesləri başlamış, ölkə maraqları ön mövqeyə çəkilmişdir. Ona görə də 1993-2003-cü illər elm tariximizə Milli Elmlər Akademiyası quruculuğu mərhələsi kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyev eyni zamanda ölkəmizdə Milli Elmlər Akademiyası quruculuğunun banisidir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 15 may 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Elmlər Akademiyası statusu verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 2003-cü ildən başlanan mərhələ 2 dövrə ayrılır: 1. Modernləşmə və inkişaf dövrü (2003-2021-ci illər); 2. Yeniləşmə və islahatlar mərhələsi (2022-ci ildən). Hazırda Milli Elmlər Akademiyası Dünya Akademiyaları Cəmiyyətinin bərabərhüquqlu üzvü kimi Azərbaycan elminin milli maraqlarının və bəşəri ideyalarının elmi cəhətdən daşıyıcısı funksiyasını yerinə yetirir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin dövlətçilik mənafelərinə və xalqımızın milli maraqlarına xidmət etmək yollarında uğurla irəliləməkdədir.

Azərbaycan Milli Elmlər Akademiyası aşağıdakı beynəlxalq elmi təşkilatların üzvüdür: Beynəlxalq Türk Akademiyaları Birliyi (Astana), Beynəlxalq Elmi Şura (Paris), Akademiyalararası Beynəlxalq Tərəfdaşlıq Akademiyası (İtaliya, Triyest), Asiya Elmlər Akademiyaları və Elmi Cə-

miyyətləri Assosiasiyası (Cənubi Koreya, Seul), Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası - MAAN (Minsk), Avrasiya Universitetlər Birliyi (İstanbul), Qafqaz Universitetlər Birliyi (İstanbul).

Bundan başqa, Azərbaycan Milli Elmlər Akademiyasının dünyanın adları aşağıda göstərilən ölkələrin Elmlər Akademiyaları ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilələri vardır: Türkiyə, Çin Xalq Respublikası, Rusiya, İtaliya, Bolqarıstan, Belarusiya, Macarıstan, Ukrayna, Gürcüstan, Litva, Qazaxıstan, Qırğızıstan, Polşa, Rumıniya, Özbəkistan, Tacikistan, Türkmənistan, Monteneqro, Yunanıstan, Pakistan, Vyetnam, Cənubi Koreya, Monqolustan, Misir Ərəb Respublikası, Əlcəzair və s.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 mart 2025-ci il tarixli Sərəncamı ilə 80 illik yubileyi qeyd edilən Azərbaycan Milli Elmlər Akademiyası özündə Elmi Bölmələri və Regional Elmi Mərkəzləri birləşdirən ali dövlət elmi təşkilatıdır.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində Humanitar Elmlər və İctimai Elmlər, Fizika-Riyaziyyat və Texnika, Kimya, Biologiya və Tibb, Yer Elmləri Bölmələri, Naxçıvan və Gəncə Bölmələri, 16 elmi-tədqiqat institutu, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, Mərkəzi Elmi Kitabxana, Şəki, Lənkəran və Quba Regional Elmi Mərkəzləri, "Elm" nəşriyyatı fəaliyyətini davam etdirir.

Milli Elmlər Akademiyasında Azərbaycançılıq idealları, ədəbi-tarixi şəxsiyyətlərin yenidən tədqiq edilib dəyərləndirilməsi yollarında mühüm addımlar atılır. Qarabağın və Qərbi Azərbaycanın öyrənilməsi, türkologiyanın ön mövqeyə çıxarılması prioritet istiqamətlərdir. Eyni zamanda XXI əsrin çağırışlarına uyğun olaraq, süni intellekt, rəqəmsal inkişaf, yaşıl transformasiyalar, elektron xidmətlər istiqamətləri akademik elmi dövriyyənin aktual istiqamətlərini təşkil edir. Yeniləşməkdə davam edən Milli Elmlər Akademiyası müstəqil dövlətimizin əsas elmi mərkəzi olaraq, çoxcəhətli elmi-təşkilati fəaliyyətini uğurla davam etdirməklə bərabər, sabahlara doğru inkişaf yollarında yeniləşmə proseslərinin mühüm addımlarını atır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 noyabr 2025-ci il tarixdə Milli Elmlər Akademiyasının 80 illik yubileyindəki dərin məzmunlu nitqində ölkəmiz üçün müəyyən etdiyi prioritetlər və hədəflər Azərbaycan elminin və Milli Elmlər Akademiyasının yol xəritəsidir. Dövlət rəhbərinin irəli sürdüyü çağırışlar uğrunda dönmədən irəliyə doğru addımlamaq Milli Elmlər Akademiyasının qayəsini və ana məqsədini təşkil edir.

Elmlər Akademiyasına malik olmaq ölkələrin elmi-texniki və mədəni inkişafının əsas göstəricilərindəndir.

Elmlər Akademiyalarını inkişaf etdirmək ölkənin ümumi inkişafına təkan vermək deməkdir.

## Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı, "Elm", 2015
2. Pol Stpetern. Platonla 90 dəqiqə. Bakı, "Qanun", 2022
3. Сократ-Платон-Аристотель.Дэвид Юм – Шопенгауэр (составитель Н.Ф.Волдырева). Москва, «Молодая гвардия», 2020
4. Словарь иностранных слов. Москва, «Русский язык», 1986
5. Юрий Борев. Энциклопедия эстетики. Москва, «Фонд Исмаила Ахметова», 2015

**İsa Həbibbəyli**
**AMEA-nın prezidenti, akademik**

## DÜNYADA ELMLƏR AKADEMİYALARI VƏ AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

Məqalədə ilk dəfə olaraq bizim eradan əvvəl IV əsrdə Yunanıstanda yaradılmış Platon Akademiyasından yeni eranın XXI əsrinə qədərki dövrdə dünyanın bütün qitələrində təsis edilmiş Akademiyaların müxtəlif formaları haqqında məlumat verilmişdir. Müxtəlif fəaliyyət istiqamətlərinə görə dünya Elmlər Akademiyalarının təsnifatı aparılmışdır.

Akademik İsa Həbibbəyli dünya Akademiyaları fonunda Azərbaycan Milli Elmlər Akademiyasının yaranması və inkişaf yolunu təqdim etmiş, əsas xidmətlərini nəzərə çatdırmışdır.

***Açar sözlər:*** *Akademiya, elmi-cəmiyyət, tədqiqat, elmi məktəb, rəqəmsal elm*

**Isa Habibbeyli**
**President of ANAS, Academician**

## WORLD ACADEMIES OF SCIENCES AND AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

In this article for the first time was presented information about the various forms of academies established on all continents, from Plato's Academy, founded in Greece in the 4th century BC, to the 21st century. Was given also classification of world academies of sciences by their various fields of activity.

Academician Isa Habibbeyli presented the foundation and development of Azerbaijan National Academy of Sciences against the backdrop of world academies and presented its achievements.

***Keywords:*** *Academy, scientific community, research, scientific school, digital science*

**Иса Габиббейли**
**Президент НАНА, академик**

## АКАДЕМИИ НАУК МИРА И НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

В статье впервые представлена информация о различных формах академий, созданных на всех континентах начиная с Академии Платона, основанной в Греции в IV веке до нашей эры, до XXI века нашей эры. Проведена классификация академий наук мира по различным направлениям деятельности.

Академик Иса Габиббейли представил возникновение и путь развития Национальной Академии Наук Азербайджана на фоне мировых академий, а также представил её заслуги.

***Ключевые слова:*** *Академия, научное общество, исследования, научная школа, цифровая наука*